*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 41-47* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.41*

**Ədəbiyyatşünaslıq**
***Azərbaycan ədəbiyyatı tarixi***

# MİLLİ ŞEİRDƏ ESTETİK İDEALIN VƏ SƏNƏTKAR MİSSİYASININ DƏYİŞMƏSİ
***(Altmışıncıların erkən lirikası əsasında)***

**Yaşar Qasımbəyli**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: yashargasimov@mail.ru

**Annotasiya.** Məqalədə poeziyamızda keçən əsrin 50-ci illərindən etibarən geniş vüsət almağa başlayan mühüm bir estetik yenilənmənin dinamikasından bəhs edilir. Belə ki, bədii təfəkkürümüzdə ictimai-siyasi gerçəkliyin yenidən dərki və dəyərləndirilməsi prosesi ilə yanaşı, həm də əvvəlki dövrlərdən fərqli sənətkar statusunun şəkillənməsi də diqqəti cəlb edirdi. Bu yeni sənətkar mövqeyi 1920-1930 və 1940-cı illərdə stalinizmin qorxunc təsiri və təzyiqi şəraitində şəkillənmiş, əslində, mahiyyətən partiya və hökümətin siyasətinin aciz və mədhiyyəçi ruporuna çevrilmiş, kökündən şair missiyasına qarşı olmuşdu. Milli-estetik idealın bərpası və yeni sənətkar mövqeyinin ərsəyə gəlməsi prosesi yeni poetik nəslin erkən yaradıcılığında özünü büruzə verməyə başlamışdı. Altmışıncılar – B.Vahabzadə, Ə.Kərim, M.Araz, X.R.Ulutürk, V.Səmədoğlu, F.Sadıq, N.Həsənzadə, İ.İsmayılzadə və başqaları yeni sənətkar statusunun yaradıcıları, bu mövqenin ardıcıl bədii inikasına töhfə verən aparıcı ədəbi şəxsiyyətlər idi.
**Açar sözlər:** yeni şair şəxsiyyəti, atlmışıncılar, B.Vahabzadə, Ə.Kərim, M.Araz, X.R.Ulutürk, V.Səmədoğlu, N.Həsənzadə, F.Sadıq

**Məqalə tarixçəsi:** göndərilib – 07.07.2023; qəbul edilib – 18.07.2023

# CHANGING OF AESTHETIC IDEAL AND MISSION OF MASTER IN NATIONAL POETRY
***(On the basis of early lyrics of sixtiers)***

**Yashar Gasimbeyli**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi ANAS. Azerbaijan.
E-mail: yashargasimov@mail.ru

**Abstract.** In the article is dealt with the dynamics of an important aesthetic renewal that became widespread in our poetry in the 50s of the last century. So that, the process of re-understanding and appreciation of socio-political reality in our artistic thought and formation of the master's status attracted attention unlike previous times. This new position of the master was fundamentally opposed to the poet's mission that formed under the terrible influence and pressure of Stalinism during the 20s,30s and 40s and essentially became a powerless and laudatory speaker of the policy

of party and government. The process of restoration of the national aesthetic ideal and the creation of a new artist position revealed itself in the early creativity of the new poetic generation. The sixtiers – B.Vahabzade, A.Karim, M.Araz, Kh.R.Uluturk, V.Samadoghlu, F.Sadig, N.Hasanzade, I.Ismayilzade and others were the creator of the new master status, and also were literary figures contributing to the consistent artistic vision of this position.
**Keywords:** new poet personality, sixtiers, B.Vahabzade, A.Karim, M.Araz, Kh.R.Uluturk, V.Samadoghlu, N.Hasanazade, F.Sadig

**Article history:** received – 07.07.2023; accepted − 18.07.2023

## Giriş / *Introduction*

*İlk Allahım, son Allahım – mübarizə!*
*Mənə bənzə!*

***Xəlil Rza Ulutürk***

Ötən yüzildə, xüsusən də mürəkkəb və ziddiyyətli sovet dönəmində ədəbiyyatımızın milli idealı necə və hansı yollarla əks etdirməsindən bəhs edərkən, qeyri-ixtiyari olaraq, Bəxtiyar Vahabzadə, Əli Kərim, Məmməd Araz, Xəlil Rza Ulutürk, Nəriman Həsənzadə, İsa İsmayılzadə, Fikrət Sadıq, Fikrət Qoca, Vaqif Səmədoğlu və başqalarının mənsub olduğu məşhur poetik epoxanın nümayəndələrini xatırlayırıq. Milli oyanış və istiqlal hərəkatının təşəbbüskarları, yeni bədii dünyagörüşünün baniləri kimi formalaşan və 50-ci illərin ortalarından etibarən ictimai-fəlsəfi və milli-estetik inkişafımızın öncülləri səviyyəsində qəbul olunan bu ədəbi şəxsiyyətlərin ərsəyə gəlməsi, evolyusiyası mütəmadi olaraq ədəbi-nəzəri fikrin diqqət mərkəzində olub [7, 1, 15, 5, 6, 11, 2, 16, 4, 3, 12, 9, 10, 8]. Qeyd etdiyimiz mənəvi-estetik proseslər poeziyada daha sürətli, iri və iti addımlarla irəliləməkdə idi. Milli idealın təsəvvür və dərki də, onun uğurlu və emosional poetik vasitələr, bədii obrazlarla ifadəsi də yeni ədəbiyyatın qarşısında duran mühüm vəzifələrdən idi. Azərbaycan xalqının dərd və faciələri, böyük amal və arzuları, sevinc və qələbələrinin ifadəsi ədəbiyyatımızın həmişə əsas və baş mövzularından olub. Tarixi minilliklərlə ölçülən şifahi söz sənətimiz, iki min ilə yaxın tarixə malik yazılı ədəbiyyatımız xalq mənəviyyatının və etnomilli idealın şərəfli daşıyıcıları, sədaqətli ötürücüləri kimi əbədiləşib. Altmışıncılar – yeni və gənc ədəbi qüvvələr məhz bu gözəl və müqəddəs ənənələrin ən inanılmış və sadiq varisləri kimi ədəbiyyat aləminə təşrif buyurmuşdular.

## Əsas hissə / *Main Part*

Milli idealın aydın ifadəsinə və qəhrəmanlıq probleminin bədii-fəlsəfi təhlilinə sonsuz həvəs və tükənməz rəğbət X.R.Ulutürk yaradıcılığının ilk çağlarından diqqəti cəlb etməyə başlayır. Şairin erkən lirikasında əks edən qəhrəmanlıq motivləri özəl poetik cəhətlərinə görə oxucuların marağına və məhəbbətinə səbəb olurdu. Bu özəlliyi ərsəyə gətirən və gənc müəllifin ən yaxşı şeirlərində uğurla gerçəkləşməsini təmin edən isə mövzuya yeni və orijinal yanaşma idi. “Müqəddəs yol” (1952) şeirində Yunanıstanın qanlı-qadalı çağlarının qəhrəmanları ilhamla vəsf edilirdi. Həcmən kifayət qədər geniş olan, 64 misradan ibarət bu mənzumədə gənc X.R.Ulutürkün qəhrəmanlığı vəsf etmək ehtirası və həvəsi bariz surətdə nəzərə çarpırdı. Şeirdəki poetik fikrin daha da güclü və emosional ifadəsinə xidmət edən ritmik paralellər, qədim məsnəvi ahənginə uyğun səslənmə və axıcılıq, gənc qələm sahibinin lirik təsvir və tərənnüm manerasındakı davamlılıq və ardıcıllıq sanki yadellilərlə mübarizənin, azadlıq aşiqlərinin qəlbindəki döyüşkənlik və üsyankarlıq ruhunun tükənməzliyinə, sonsuzluğuna işarə edir:

*Gedir nəvələri böyük Homerin,*
*Gedir düşmənləri kralın, serin...* [14, s.37]

“Müqəddəs yol”un başlanğıcı dərin mənalarla zəngin olduğu kimi, onun sonluğu da ibrəta-

miz səciyyə daşıyır. Vətən yolunda döyüşərək ölmək, xalqın azadlığı və baxımsızlığı uğrunda şəhid olmaq qəhrəmanlıq yolunun sonu deyil. Əksinə, yenidən doğulmaq və dünyaya gəlməkdir. Gənc X.R.Ulutürk elə özü kimi gənc qəhrəmanının dili ilə hələ 50-ci illərin əvvəllərində kəskin və cəsur həqiqətləri söyləyirdi. Yunan xalqının qəhrəman oğlunun ölümqabağı andı gənc Azərbaycan şairinin sanki gələcək yaradıcılığının kredosu, proqramı kimi səslənirdi.

"Şərqin gözləri" (1956) şeirində X.R.Ulutürk azadlıq uğrunda mübarizə və qəhrəmanlıq problemini başqa bir xalqın – bu dəfə Şərq xalqlarından birinin tarixi taleyi müstəvisində nəzərdən keçirir. Şeirdə ərəb xalqının milli istiqlalı uğrunda mübarizə apardığına görə gözləri çıxarılan misirli Məhəmməd Osmanın faciəsindən söhbət açılır. Gənc və üsyankar şair cavan bir oğlanı dünya işığına həsrət qoymaqdan çəkinməyən cəllad xislətli hakimlərə üz tutub hayqırırdı: "Sən ey hakim xəlötli, Cəllad ürəkli alçaq! Necə qıyıb çıxardın O cavanın gözünü? Titrəyib əsmədimi, Əlini kəsmədimi Əlindəki o bıçaq?!" [14, s.41] Öz xalqına milli səadət və azadlıq işığı bəxş etmək istəyən qəhrəmanın özünü işıqlı dünyaya həsrət qoyanlara qarşı müəllifin nifrəti və qəzəbi sonsuzdur. Gənc şair bu azadlıq və həyat eşqi ilə yaşayanların qatilinə çevrilmiş hakimləri amansız sözlərlə lənətləyirdi. X.R.Ulutürk bu dəhşətli hadisədən son dərəcə geniş və əhatəli xülasələr çıxarır. Bir azadlıq mücahidinin gözlərinin çıxarılması faciəsini bütün Şərqin səhərinin doğacağına və gözlərinin açılacağına ümid kimi mənalandırır:

*Yetər, rədd olun daha!*
*Xalq sarılmış silaha!* [14, s.41]

"Şərqin gözləri" şeiri X.R.Ulutürkün qəhrəmanlıq problemini milli azadlıq və milli tale müstəvisində poetik təhlil etməkdə israrlı olduğunu nümayiş etdirirdi. Qəhrəmanlıq gənc şair üçün gəlişi gözəl söz, hay-küylü və pafoslu bir anlayış deyildi. Qəhrəman, müəllfin təlqinində, millətin ağır ictimai-siyasi durumu və taleyi ilə bağlı olan fövqəlşəxsiyyətdir. Şairin müxətlif xalqların həyatından və tarixindən seçib tərənnüm etdiyi qəhrəmanları məhz bu mənəvi-estetik keyfiyyət birləşdirir. Avropa xalqlarının da, Şərq xalqlarının da tarixi və milli qəhrəmanlarını X.R.Ulutürk məhz bu ovqat və yaşantılarla tərənnüm edirdi.

"Qandallanmış qandallar" (1959) şeirində də yuxarıda söylədiklərimizin səmimi poetik ifadəsini müşahidə edirik. Rusiya haqqında bir çox gözəl və təsirli şeirlərin müəllifi olan X.R.Ulutürk bu əsərində rus xalqının azadlıq və insan hüquqları uğrunda mübarizəsinin şanlı səhifələrindən birini qələmə almışdır. O vaxtkı Leninqradda, Petropavlovsk qalasında azadlıq mücahidlərinin qollarına taxılmış qandallara əlləri ilə toxunan şair qəribə duyğular yaşayır:

*Toxundum əlimlə o qandallara,*
*Dəmirin soyuğu qanıma keçdi.*
*Zəncirlər şaxtalı, zəncirlər qara,*
*Zəncirlər divara zəncirlənmişdi.* [14, s.56]

Müəllif bu zindan-muzeyi seyr edərkən yadına bir vaxtlar burada əzab-əziyyət çəkmiş böyük rus mücahidləri düşür. Və şairin aşağıdakı misraları özünün ümimiləşdirici və sirayətedici təsirinə görə son dərəcə emosional və yaddaqalandır.

*Nevada su deyil, al qanlar axır,*
*Barmaqlıq dalından Rusiya baxır.*
*Rusiya, baxır!* [14, s.56]

"Qandallanmış qandallar" şeirinin özəlliyi və bu mövzudakı mövcud şeirlərdən fərqi gənc müəllifin cəsarətlə rus xalqının faciəvi tarixinin təsvirindən Azərbaycan faciələrinin tərənnümünə keçid etməsi idi. Əgər "Şərqin gözləri" şeirində müəllif bir ərəb oğlunun qanlı faciəsini geniş mənada ümumiləşdirmişdisə, artıq bu şeirdə konkret olaraq öz xalqının və Vətəninin dərdlərini söyləməyə cəsarət edirdi. 1930-1940-cı illərin poeziyasında bu cür yanaşmaları və poetik sonluqları müşahidə etmək çətindir.

*Sən məni, sən məni eşidirmisən*
*Ey Ərk istehkamı, Təbriz qalası?* [14, s.57]

"Qatar gedər Araz boyu" (1959) X.R.Ulutürkün azadlıq və qəhrəmanlıq problemləri müstəvisində 50-ci illər ərzində apardığı ciddi poetik axtarışların zirvəsidir. Bu şeirində gənc qələm sahibi bir neçə suala cavab tapmağı və onları sərrast şəkildə səsləndirməyi qarşısına məqsəd

qoymuşdu. Birincisi, şair beynəlxalq və dünya xalqlarının tarixi və azadlıq uğrunda mübarizəsi müstəvisindəki bədii araşdırma və düşüncələrinə güvənərək, öz xalqının taleyi və ictimai-siyasi vəziyyətindən çıxış etməyə, bu yöndə mühakimə yürütməyə can atmışdı. İkincisi isə, X.R.Ulutürk onu çoxdan bəri düşündürən bir məsələyə də aydınlıq gətirmək istəyirdi; bəs bu günümüzün millət üçün, cəmiyyət üçün ən önəmli və fövqəl şəxsiyyəti kimdir? Maraqlıdır ki, bu şeirdə belə bir son dərəcə çətin və ümummilli əhəmiyyətə malik suala cavab var idi. "Qatar gedər Araz boyu" şeirinin lirik qəhrəmanı vətənin ən qeyrətli və qorxmaz oğullarından biri kimi düşünür, onun sirayətedici yaşantıları və qəlbinizi qarsan iztirabları sizin də içinizdə qığılcımlar yaradır, öz atəşin cazibəsi ilə sizi özünə çəkirdi. Həqiqətən, şeirdə elə duyğular təsvir olunmuşdu və elə misralar vardı ki, onlar lirik "mən"in zamandaşları üçün hədsiz yeni idi:

*Mən Arazı az qala gözlərimlə içərəm,*
*Dirəklərin üstündən alov kimi keçərəm.*

[13, s.32]

Şairin o taylı qardaşlarımıza, bacılarımıza həsrət və sonsuz nisgillə yoğrulmuş xitabları da oxucuların qəlbini riqqətə və ehtizaza gətirirdi: "Ey Mərəndim, Marağam, ey vüqarlı Təbrizim! Ey mənim Ərdəbilim, mehribanım, əzizim! De, bəs nə cür dözürsən o kor qaranlığa sən? Zülmətlərin içində nə vaxtdır yol gedirsən!" Şairin aşağıdakı misralarını isə təkcə poetik obrazlılığın və ifadə tərzinin nişanələri deyil, eyni zamanda əsl qəhrəmanlıq və şücaətin rəmzi hesab etmək olar:

*Qoşa rels ki görürsən sənə sarı uzanır,*
*Üstündən təkər keçən yaralı qollarımdır.*
*Mənim yumruqlarımdır o hiddətli təkərlər,*
*Qığılcımlar səpələr, yollara od tökərlər.*

[13, s.33]

"Sıldırım üstündə dayanan palıd" (1958) Xəlil Rza Ulutürkün erkən lirikasında diqqəti cəlb edən poetik nümunələrdən biridir. Gənc müəllifin və yeni poetik nəslin mənəvi-estetik məramnaməsi bu şeirdə emosional şəkildə əks olunub. "Sıldırım üstündə dayanan palıd"ın Moskvada yazılması və qardaş tatar xalqının qəhrəman oğlu və böyük şairi Musa Cəlilə (1906-1944) həsr olunması bu səmimi və ürəkləri ehtizaza gətirən mənzumənin fikir genişliyinə qüvvətli təsir göstərmişdir. Şeirdə təsvir olunan son dərəcə dramatik situasiya mövcud ictimai-siyasi mühitin və ədəbi-mədəni həyatın həmin illərdəki vəziyyətinə işarə kimi də düşünülə və qəbul edilə bilər. Dəniz saihilindəki sıldırım qaya üstündə göylərə yüksələn nəhəng və müəzzəm palıd ağacı, hər gün fırtınalı dənizin davakar dalğa və qasırğaları ilə döyüşən cəsarətli, əzəmətli ağac ölüm və qalım seçimi ilə üz-üzə qalmış mübariz şair əhvali-ruhiyyəsi, həyatı bir-biri ilə hədsiz uyğun gələn və üst-üstə düşən qoşa, əkiz poetik qütblərdir. Buradakı uyğunluq və taledaşlıq o dərəcədədir ki, onlardan hansı birinin daha bəxtsiz, daha dözülməz qismətə malik olduğunu təxminən söyləmək belə çətindir:

*Şahə qalxmış dənizin seyr eləyin sahilini:*
*Qocaman, göy palıdın yaxşı baxın qamətinə.*
*Dayanıb sıldırım üstündə müəzzəm, məğrur*
*Əymədən dik başını fırtınanın hiddətinə.*
*Dalğalar hey can atır mavi qoşun tək irəli,*
*Göylərə hey şığıyır sahilə ağ bayraq ilə,*
*Elə bil qeyzə gəlib qorxulu ümman döyüşür,*
*Hər daşı, hər qayası səngər olan bir dağ ilə!*

[13, s.28]

Dəniz sahilindəki ağacın düşmənləri təkcə qudurmuş dalğalar, dəli qasırğalar deyil. Amansız küləklər də onun gövdəsinə tozu, qumu, daşları çırpmaqdan usanmır. Gövdəsini yaralayır, budaqlarını sındırır, yarpaqlarını isə qoparıb dənizə səpələyir. Göylər də tənha və yalqız palıda rəhm etmir. İldırımlar da ara vermədən, aman vermədən palıdın başı üzərinə şığıyırlar. Amma bütün bunlara baxmayaraq, qoca palıd, təbiətin türfə zülm və sınaqları ilə üz-üzə qalmış yalqız ağac əyilmir, məğlub olmur.

*Yel qırır yarpağını, qərq eyləyir dalğalara,*
*Üzülür qol-qanadı, tüstülənir gövdəsi də.*
*Əyə bilmir yenə ancaq onu tufan, onu yel,*
*Dənizin hayqırışı, ildırımın nərəsi də!*
*Ən nəhayət, bir ovuc ağ kül olub sovrulur o,*
*Qaralan gözlərini dalğa yuyur, sel aparır.*

[13, s.28]

Şeirdə göylərin və yerlərin insafsızcasına sınağa çəkdiyi ağacın qəmgin və tragik taleyi təsvir olunur. İldırım vurub, yandırıb gövdəsi külə çevrilən palıdı dəli dalğlalar yuyub aparır. Sıldırım üstündə dayanan nəhəng və döyüşkən ağac yanıb kül olur, "bir ovuc ağ kül olub sovrulur o!" Amma müəllifin məqsədi, sadəcə olaraq bir taleyin, bir mübarizənin, bir döyüşün tərcümeyi-halını təsvir edib göstərmək deyil. Çünki onun qəhrəmanı sıldırım üstündə dayanan palıdın həyatdakı əksi və prototipi olan şairdir. Şairlərin taleyi və mübarizəsi isə əbədiyyət yönlü və əbədiyyət ünvanlıdır. Və əbədiyyətin qanunauyğunluqları ilə təbiətin yaşam məntiqi və qanunları arasında heyrətamiz bir həmahənglik mövcuddur:

*...Palıdın yandığı yerdə göyərir körpə palıd,*
*Təzə tufanlar üçün yerdə yenə bəslənir o.*
*Başı göylərdə durur, rişəsi torpaqda yenə,*
*Dənizə, ildırıma "gəl!" – deyərək səslənir o!*
[13, s.29]

Gənc şair bu şeiri, xüsusən misal gətirdiyimiz sonuncu misralar vasitəsi ilə cəmiyyətə və öz mühitinə son dərəcə cəsarətli və gözlənilməz bir qərarı və ürəyinin məramı kimi təqdim edirdi. Yəni biz ədəbiyyat aləminə döyüşmək üçün gəlmişik. Bu yolun sonunda bizi qanlı-qadalı sınaqlar, döyüşlər, mübarizələr gözləsə də çəkinməyəcəyik. Musa Cəlil yolu, Hüseyn Cavid, Müşfiq, Əhməd Cavad yolu – bizim yolumuzdur. Təbiətdə sıldırım üstündə dayanan qoca palıdı təzə pöhrələr əvəz edib, həyat və varlıq uğrunda mübarizə təzədən başlandığı kimi, cəmiyyətdə də, ədəbi həyatda da döyüşlər əbədidir. İldırımların yandırıb kül etdiyi Qoca palıdın yerində göyərən körpə palıd onun taleyini və qismətini yenidən necə yaşayacaqsa, biz də şəhid ataların, qətl edilən ustadların həyat yolunu və lazım gələrsə, taleyini təzədən yaşamağı bacarmalı, son damla qanımıza qədər onların əqidə və məslək yoluna sadiq qalmalıyıq. "Sıldırım üstündə dayanan palıd" şeirinin hələ 50-ci illərin sonlarında tərənnüm və təlqin etdiyi cəsarətli həqiqətlər məhz bunlardan ibarət idi.

Həmin dövrdən başlayaraq öz ehtiraslı şeirləri və döyüşkənliyi ilə seçilən xalqımızın sevimli şairi X.R.Ulutürk haqqında görkəmli ədəbiyyatşünaslarımızdan biri yazırdı: "Onun əsərlərində nalə çəkib şölələnən dərdlər elin-obanın, Vətənin, Xalqın, Türk dünyasının, Şərqin, bir sıra hallarda isə bəşəriyyətin, dünyanın dərdləri idi. Ən böyük dərdləri çəkməyi və bunları əsərlərində mükəmməl əks etdirməyi bacaran şair əsl xalq şairidir... Xəlil Rzaya qədər Azərbaycan ədəbiyyatında bu cür şairlərin böyük bir qalaktikası var" [14, s.5]. Görkəmli alimin "Ən böyük dərdləri çəkməyi və bunları əsərlərində mükəmməl əks etdirməyi bacaran şair əsl xalq şairidir" meyarı, demək olar ki, Azərbaycan şifahi və yazılı ədəbiyyatının həmişə baş məqsədi və aparıcı xüsusiyyəti olmuşdur. Amma sovetlər hakimiyyətinin Azərbaycanda hökmranlığı dövründə, xüsusən 1920-1950-ci illərdə bu milli-estetik keyfiyyətin və potensialın amansız repressiyalar nəticəsində xeyli dərəcədə zəiflədiyini də etiraf etməliyik. 1920-1930-cu illərin qanlı və dəhşətli repressiyalarına baxmayaraq, Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq və başqa Azərbaycan ədibləri, şairləri millətin taleyinə sədaqət, vətənlə taledaşlıq andını müqəddəs tutdular.

Ötən əsrin 50-ci illərinin ortalarından etibarən qanlı qətllər və repressiyalar səngiyəndən sonra məhz birincilərdən olaraq altmışıncılar poetik nəsli milli söz sənətimizə xas olan xalqın və vətənin mənafeyini, şərəf və ləyaqətini qorumaq əzmini, böyük sənətkar və eyni zamanda döyüşçü, qəhrəman olmaq missiyasını da öz əsərlərində cəsarətlə nümayiş etdirməyə başladılar. Azərbaycan ədəbiyyatında qədim və zəngin ənənələrə malik bu poetik yolun ən ardıcıl və mübariz davamçılarından biri məhz böyük Xalq şairi X.R.Ulutürk idi. İlhamının coşğun və qaynar çağlarında, ömrünün ilk gənclik illərində doğma vətəninə, bütün kürreyi-ərzə üz tutub, "İlk Allahım, son Allahım – mübarizə! Mənə bənzə! Doğramsam da xıncım-xıncım, zərrə-zərrə, rizə-rizə, Məramımdır mübarizə! Mənə bənzə!" [14, s.73] deyən şairin yaradıcılığında bu ovqat, bu duyğu, bu inam bir gün də, bir an da səngiməmiş, bir şeirində və bir misrasında belə könülsüz, zəif və sısqa səslənməmişdir. Qırmızı imperiyanın qəzəbi və hiddəti, dünya hökmranlığı hikkəsi bütün planetimizi hədəfə alanda X.R.Ulutürk sərhədsiz məhəbbətlə dünyamıza, hamımıza səslənirdi: "Azadlığı istəmirəm zərrə-zərrə qram-qram: Qolumdakı zəncirləri qıram gərək! Qıram!!! Qıram!!! Azadlığı

istəmirəm bir həb kimi, dərman kimi, İstəyirəm günəş kimi!!! Səma kimi!!! Cahan kimi!!! Çəkil!!! Çəkil, ey qəsbkar! Mən bu əsrin gur səsiyəm! Gərək deyil sısqa bulaq! Mən ümmanlar təşnəsiyəm!" [13, s.37] Qəhrəman şairin bu yanıqlı və atəşin misraları hələ 1960-cı ildə doğulmuşdu və böyük sənətkar ömrü boyu bu andına və gənclik cəsarətinə sadiq qaldı: "İctimai-siyasi mühitin eybəcərliklərinə qarşı barışmazlıq, insan hüquqlarının, milli hüquqların tapdalanmasına qarşı açıq etiraz və üsyankarlıq əhvali-ruhiyyəsi hələ totalitar rejimin ən ağır vaxtlarında X.R.Ulutürk yaradıcılığında özünü sıx-sıx büruzə verirdi. Onun sənətkar özünəməxsusluğu demokratik hərəkatımızın ilk günlərindən qabarıq şəkildə üzə çıxmışdı. İnqilab ruhlu şair bu hərəkatın ideoloqlarından biri olmaqla milyonların azadlıq ideallarının tərənnümçüsünə çevrilmişdi [14, s.5].

Həqiqətən də, ehtiraslı və ilhamlı yaradıcılığı ötən əsrin 80-90-cı illərində geniş vüsət almış xalq hərəkatının əsl ifadəsinə və yüksək bədii keyfiyyətlə müşayiət olunan salnaməsinə çevrilən bir poeziyanın bu dərəcəyə və səviyyəyə yüksəlməsi də asan və qısa bir müddət ərzində həyata keçən iş deyildi. Təkrarsız və nəhəng bədii istedadın, misilsiz dərəcədə zəhmətsevər ədəbi şəxsiyyətin bu zirvəni fəth etməsi üçün neçə-neçə illərin, onilliklərin dözülməz və əzablı yaşantılarına, mənəvi iztirablarına, yaradıcılıq ağrılarına və sınaqlarına dəfələrlə sinə gərmək lazım olmuşdu. Müəllif yenilməz və üsyankar şairin yarım əsrə yaxın davam etmiş möhtəşəm yaradıcılıq yolunu, cəsarətlə keçdiyi uzun kamilləşmə və özünütəsdiq yolunu elmi cəhətdən obyektiv səciyyələndirir: "Xəlil Rza Ulutürk XX əsrin 50-ci illərində yaradıcılığa başlayıb, 60-70-ci illərdə bir sənətkar kimi püxtələşən, ikinci Respublika dövrünün qadağan çərçivələrini parçalayıb, əsərləri və ictimai fəaliyyəti ilə rejimə meydan oxuyan, 80-90-cı illərdə Azərbaycanın azadlığı və istiqlalı uğrunda mübarizəni yaradıcılıq və vətəndaşlıq amalına çevirən görkəmli şairimizdir. Böyük məsuliyyətlə və özünə qarşı amansız tələbkarlıqla hüdudlanan fasiləsiz fikri bədii axtarışlar və tapıntılar Xəlil Rza Ulutürkün lirik qəhrəmanın başlıca əlamətlərindən biri, bəlkə də birincisidir" [14, s.2-3].

## Nəticə / *Conclusion*

Özü də milli oyanış və istiqlal hərəkatının yaradıcılarından və fəal iştirakçılarından olan Ümummilli liderimiz Heydər Əliyevin böyük istiqlal şairi X.R.Ulutürklə vida mərasimində söylədiyi və ümummilli yaddaşı dərinləşdirməyə ünvanlanmış fikirləri, ümumən, həmin döyüşkən və qalib nəslin mənəvi-mədəni tariximizdəki mövqeyini və əsas missiyasını son dərəcə aydın surətdə səciyyələndirir: "Xəlil Rza Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin ön cərgələrində getmiş, bu mübarizəyə qalxan gənclərimizə örnək olmuşdur. O, daim Azərbaycanın müstəqilliyi duyğuları ilə yaşamış, həyatının şüurlu hissəsini buna nail olmağa sərf etmiş, böyük xidmətlər göstərmişdir. Allaha şükürlər olsun ki, o, Azərbaycanın müstəqilliyinin şahidi olmuş, bunu görmüşdür. Mən daim onun yaradıcılığına, insanlığına, vətəndaşlığına, ən çox cəsurluğuna, əyilməzliyinə, öz ideyalarından dönməzliyinə hörmət etmişəm, onu yüksək qiymətləndirmişəm. Ona görə də bu itki bütün Azərbaycan xalqı kimi, mənim üçün də böyük bir itkidir. Güman edirəm ki, Xəlil Rzanın parlaq həyatı, onun böyük vətəndaşlığı, milli azadlıq uğrunda mübarizliyi bütün azərbaycanlılar üçün nümunə olacaqdır. Əminəm ki, Xəlil Rza Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır".

## Ədəbiyyat / *References*


1. Alışanlı, Ş. Sözün estetik yaddaşı. – Bakı: Elm, 1994.
2. Anar. Zamanın amansızlığı. "Ədəbiyyat qəzeti", 21 iyul 2012.
3. Əsgərli, Ə. Xəlil Rza Ulutürkün poetikası. – Bakı: BQU, 2009.
4. Əsgərli, Ə. Milli ideal mücahidi. – Bakı: Elm, 2005.
5. Həbibbəyli**,** İ. Xalq şairi Məmməd Araz. – Bakı: Azərbaycan, 1999.

6. Qarayev, Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. – Bakı: Elm, 2002.
7. Qarayev, Y. Poeziya və nəsr. – Bakı: Yazıçı, 1979.
8. Qasımbəyli, Y. Heydər Əliyev əbədiyyəti və ədəbiyyat. Bakı: Elm və təhsil, 2018.
9. Qasımbəyli, Y. Milli oyanış və özünəqayıdış lirikası. – Bakı: Elm və təhsil, 2012.
10. Qasımbəyli, Y. Rəsul Rza və ədəbi çağdaşları. – Bakı: Elm və təhsil, 2018.
11. Nəbiyev, B. Müqəddimə. Bax: Xəlil Rza Ulutürk. Seçilmiş əsərləri. 5 clddə, I c. – Bakı: Elm, 2007.
12. Rüstəmli, A. Ədəbi istiqlalımız. – Bakı: Elm, 2004.
13. Ulutürk, X.R. Seçilmiş əsərləri. – Bakı, 2014.
14. Ulutürk, X.R. Seçilmiş əsərləri. 5 cilddə, I c. – Bakı: Elm, 2007.
15. Yusifli, V. Məmməd Araz dünyası. – Bakı: Şur, 1994.
16. Yusifli, V. Rəsul Rza və müasir Azərbaycan poeziyası. – Bakı: Letterpress, 2010.

## СМЕНА ЭСТЕТИЧЕСКОГО ИДЕАЛА И МИССИИ ХУДОЖНИКА В НАЦИОНАЛЬНОЙ ПОЭЗИИ
***(на основе ранней лирики шестидесятников)***

**Яшар Гасымбейли**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: yashargasimov@mail.ru

**Резюме.** В статье говорится о том, что с 50-х годов прошлого века в нашей поэзии с широким размахом произошла грандиозная динамика эстетического новаторства. Наряду с началом процесса нового осмысления и оценки общественно-политической реальности в нашем художественном мышлении, внимание привлекает увеличение статуса литератора в отличие от предыдущих этапов. Эта новая творческая позиция утвердилась в 20–30-х годах под влиянием и давлением устрашающей обстановки сталинизма и на деле была рупором восхваления и малодушной покорности личности властной политике партии и в корне противоречила миссии поэта. Процесс воссоздания нового национально-эстетического идеала и установление новой творческой позиции проявился в раннем творчестве нового поколения поэтов. Шестидесятники Б.Вахабзаде, А.Керим, М.Араз, Х.Р.Улутурк, В.Самедоглу, Ф.Садыг, Н.Гасанзаде, И.Исмаилзаде и др. передовые деятели литературы создали новый творческий статус, одарив эту позицию передовым художественным отражением.
**Ключевые слова:** личность нового поэта, шестидесятники, Б.Вахабзаде, А.Керим, М.Араз, Х.Р.Улутурк, В.Самедоглу, Н.Гасанзаде, Ф.Садыг